# Azərbaycan söz azadlığını və informasiya təhlükəsizliyini yüksək səviyyədə gerçəkləşdirir



**İnsanların ətraf aləmdə baş verən yeniliklərdən xəbər tutmaq tələbatı çağdaş informasiya cəmiyyətində heç vaxt indiki qədər önəmli olmayıb. Qloballaşan dünyamızda cərəyan edən hadisələr həyatımızın bütün yönlərini durmadan dəyişir. Bu prosesi əks etdirən informasiya axını çoxaldıqca onunla bağlı qayğı və narahatlıqlar da artır. Beləliklə cəmiyyətə hansı informasiyanı vermək məsələsi gündən-günə aktuallaşır. Buna görə də informasiya siyasəti artıq hər bir dövlətin diqqət yetirdiyi əsas məsələlərdən birinə çevrilib.**



İnsanlar hər şeylə maraqlanırlar. ABŞ-ın "Associated Press" agentliyinin keçmiş rəhbəri Kent Kuperin onillər əvvəl söylədiyi "Cəmiyyətin informasiya almaq hüququ var" ifadəsi, 1953-cü ildə Harold Krossun yazdığı kitaba başlıq seçildikdən sonra jurnalistlərin yaddaşına möhkəm həkk olub. Heç də təsadüfi deyil ki, mediaya dair qəbul olunmuş qərarlarda bu ifadə önəmli yer alıb. Belə bir şəraitdə sosial informasiya texnoloqları olan jurnalistlər yaxınuzaq çevrəsində baş verənlər barədə informasiyanı obyektiv və operativi şəkildə toplamağa və dərc etməyə borcludurlar. Lakin nəzərə almaq lazımdır ki, ayrıca KİV-lərin informasiya siyasəti olduğu kimi, hər bir dövlətin də informasiya siyasəti var.

Transmilli informasiya siyasəti, sərhədləri asanlıqla aşan beynəlxalq təbliğat fəaliyyəti ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərir. İngilis tədqiqatçısı Entoni Smitin belə bir fikrini yada salmaq yerinə düşər: "İnformasiya əsri bərqərar olduqca dövlət sərhədlərinin silinmə prosesi başlanacaq. Bir vaxtlar mətbuat ölkə hüdudlarında və hökumətlərin icazə verdiyi çərçivədə fəaliyyət göstərirdi. Bu gün isə belə demək olar: insan məkanı fəth edib, bütün dünya, sanki, onun ovcundadır".

İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) cəmiyyət həyatına geniş tətbiqi də informasiya siyasətinə yenidən baxmağı tələb edir. Mütəxəssislərin qeyd etdiyi kimi, qloballaşmanın vüsət aldığı, virtual informasiya məkanının günü-gündən genişləndiyi, milli informasiya mühitinin pozulduğu, etnodəyər meyarlarının və sədlərinin "universallaşdığı" müasir dünyada beynəlxalq və yerli ictimai rəyin idarə olunması, siyasi proseslərin məqsədli yönləndirilməsi getdikcə daha çox zərurətə çevrilir.

Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan, xüsusilə də 1993-cü ildən sonra vahid informasiya siyasətinin formalaşması və informasiya təhlükəsizliyinin təminatı, informasiya mühitinin yaradılması sahəsində mərhələ ilə məqsədyönlü işlər görülmüşdür. Ən əsası isə KİV-in fəaliyyətini tənzimləyən normal qanunvericilik bazası yaradılaraq, bu sahədə hüquqi sənədlər beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın 47-ci maddəsi hər kəsin fikir və söz azadlığı olduğunu təsbit etmişdir, 50-ci maddə isə hər kəsə istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı verir. 1998-ci il avqustun 6-da ölkə Prezidentinin fərmanı ilə senzura ləğv edilmişdir. Fərmanda göstərilmişdir ki, ölkə KİV-nə istənilən fikir demək, dövlət sirri təşkil etməyən faktı açıqlamaq üçün qeyri-məhdud imkanlar verilir. KİV-də bu inqilabi yenilik Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmiş, ölkənin informasiya siyasətini dolğunlaşdırmışdır.

2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyini ləğv etməklə Azərbaycan bir daha sübut etmişdir ki, dövlət mətbuat üzərində nəzarət aparmır. 2003-cü ildə isə demokratik cəmiyyətin mahiyyətindən doğan tələb və zərurət kimi medianın özünütənzimləmə mexanizmi olan Mətbuat Şurası yaradılmışdır. Onun əsas məqsədi dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyasını həyata keçirməkdir.

Avropa Şurasına daxil olduqdan (2001) sonra isə Azərbaycan dövləti beynəlxalq müqavilələrə riayət edilməsini ön plana çəkmiş və insan hüquqları və azadlıqları ilə bağlı Avropa konvensiyalarına hörmətlə yanaşır. Həmin sənədlərə əsasən, hər bir şəxsin söz azadlığı-- istənilən sərhəd daxilində hakimiyyətin müdaxiləsi olmadan məlumat almaq və ötürmək hüququ var. Bütün bu tələblərə cavab verən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni Qanununun qəbulu (1999) və ona sonrakı əlavələr ölkəmizdə söz və mətbuat azadlığına tam təminat verir.

Media mütəxəssisləri etiraf edirlər ki, çağdaş dünyada elektron medianın ictimai rəyə təsiri çap mediasından daha böyükdür. Beynəlxalq standartlara cavab verən "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu (2002) ölkəmizdə teleradio yayımını tənzimləyir. Teleradio fəaliyyətinin əsas prinsipləri qanunun 3-cü maddəsində öz əksini tapıb. Həmin maddədə göstərilir: "Yayımçı öz fəaliyyətində informasiyanın əhatəliyi, obyektivliyi, tam və doğrudüzgünlüyü, vətəndaşların öz fikir və baxışlarını sərbəst ifadə etməsi, ideoloji və siyasi plüralizm, tərəfsizlik və qərəzsizlik, insanların şəxsi həyatına müdaxilənin yolverilməzliyi, milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsinə, proqramların keyfiyyətliyi prinsiplərinə əsaslanır".

Ölkədə teleradionun tənzimlənməsini dövlət qurumu olan Milli Teleradio Şurası (2002) həyata keçirir. Onu da qeyd edək ki, bu şura öz fəaliyyətində Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Milli Televiziya və Radio Şurasının Əsasnaməsini rəhbər tutur. 2004-cü ildə ölkəmizdə "İctimai Televiziya və radio yayımı haqqında" qanun qəbul olunmuşdur. Qanundakı bəzi maddələr Avropa Şurasının ekspertləri ilə razılaşdırılmışdır. Avropa Şurası Baş katibinin xüsusi nümayəndəsi Mats Linberq o zaman qeyd etmişdir ki, Avropa Şurası İctimai Televiziyanın varlığını həqiqi demokratiyanın reallaşması və demokratik cəmiyyətin əsası kimi qəbul edir.

Beləliklə, söz azadlığının geniş və davamlı təminatçısı olan kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən ölkə qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "KİV haqqında", "Dövlət sirri haqqında", "Rabitə haqqında", "İnformasiya əldə etmək haqqında" qanunlardan və digər normativ aktlardan ibarətdir. Xatırladaq ki, "Dövlət sirri" haqqında Qanunda sonralar bu kateqoriyaya aid siyahıya hərbi sahəyə, dövlətin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə dair məlumatlar əlavə edilmişdir.

KİV sahəsində Azərbaycan dövlətinin siyasətinin əsasını söz və məlumat azadlığının təmin edilməsi təşkil edir. 1998-ci ildə qəzet redaksiyalarının əvəz dəyər vergisindən azad edilməsi, Prezidentin sərəncamı ilə 2000–2001-ci illərdə KİV-lərin maddi-texniki şəraitinin yaxşılaşdırılması haqqında tədbirlər proqramı qəbul edilməsi, 2001-ci ildə kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər müəyyən edilməsi, 2003-cü ildə qəzetlərin "Azərbaycan" nəşriyyatına borclarının dondurulması və 2006-cı ildə 450 min ABŞ dolları həcmində borcun büdcədən ödənilməsi ölkəmizdə dövlətin mediaya önəmli qayğısının göstərir.

Azərbaycan dövlətinin KİV-ə olan qayğısı təkcə bununla bitməmiş, 2008-ci ildə ölkə başçısının sərəncamı ilə "Azərbaycan Respublikasında, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nın təsdiqi dövlət--mətbuat münasibətlərinin tənzimlənməsi istiqamətində atılan yeni bir önəmli addım olmuşdur. Yaradılmış hüquqi və maddi-texniki imkanlar zəminində Azərbaycanda İKT sahəsi son illərdə xeyli inkişaf etmişdir. Respublikamız İKT sahəsindəki inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yeri tutmuşdur.

Bütün bunlar ona xidmət edir ki, ölkə jurnalistləri maraq doğuran məlumatları toplamaq və yaymaqla bağlı vəzifə borclarını maneəsiz və yüksək səviyyədə yerinə yetirə bilsinlər. Müsir şəraitdə hər bir vətəndaş ölkədə baş verən hadisələrdən vaxtında məlumat tutmalıdır ki, onunla bağlı müzakirələrdə iştirak edə bilsin. Amerika konstitusiyasının yaradıcılarından biri olan Ceym Medismonun məşhur bir kəlamını yada salmaq yerinə düşər: məlumatdan məhrum olan xalq məzhəkə və faciə doğuran hakimiyyətin astanasındadır.

Lakin təkcə informasiya verməklə iş bitmir, yaşadığın ölkənin mənafeyini qorumaq, onun informasiya siyasətini müdafiə etmək lazımdır. Hər bir jurnalistin vətəndaşlıq mövqeyi olmalıdır. Bu məsələ ilə bağlı müstəqil dövlətimizin informasiya təhlükəsizliyi siyasəti Milli Təhlükəsizlik Konsepsiyasında və "Milli Təhlükəsizlik haqqında" Qanunda öz əksini tapıb. Qanunda informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması tədbirləri aşağıdakı kimi müəyyən edilmişdir:

***– ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;***

***– dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanması;***

***– informasiya infrastrukturunun inkişaf etdirilməsi;***

***– dövlət sirlərinin qorunmasının hüquqi mexanizminin təkmilləşdirilməsi;***

***– kibercinayətlərə qarşı mübarizə;***

***– informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması.***

Sənəddə bundan əlavə, məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi; informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi; informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi; dünya informasiya sisteminə daxil olma kimi maddələr öz əksini tapmışdır.

Azərbaycanın informasiya təhlükəsizliyinin önəmini vurğulayan Prezident İlham Əliyev qeyd etmişdir ki, bizə qarşı informasiya müharibəsi aparan məkrli qüvvələr var. Onların böhran xarakterli yazıları əsasən erməni lobbisinin təsiri altında hazırlanır. Psixoloji müharibənin tərkib hissəsi olan informasiya müharibəsi informasiyalar vasitəsilə həyata keçirilir. Yalan, hədələmə, ideoloji təxribat kimi texnologiyaların köməyi ilə bir ölkə digər ölkənin apardığı siyasəti gözdən salmağa, xalqla ordu arasında nifaqa çalışır, bir sözlə, insanlar arasında dövlətə inamsızlıq yaratmaq üçün dəridən-qabıqdan çıxır.

Xatırladaq ki, son illərdə Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi-siyasi təxribatlar zamanı bəzi media qurumları sayıqlığı itirmiş, düşmən tərəfdən uydurulmuş yalan, yoxlanılmamış məlumatların yayılmasına yol vermişdir. Belə bir vəziyyətin təkrarlanmaması üçün Prezident İlham Əliyev 2014-cü ilin sentyabr ayında cəbhə xəttindəki vəziyyətlə bağlı bəzi təhlükəsizlik tədbirləri haqqında sərəncam imzalamışdır. Sərəncamda kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən, sosial şəbəkələrdə cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən məlumatların mütəmadi monitorinqinin keçirilməsi və "Dövlət sirri haqqında" Qanuna görə dövlət sirri təşkil edən məlumatları yayan şəxsləri müəyyən edilib onların məsuliyyətə cəlb olunması nəzərdə tutulmuşdur.

Unutmayaq ki, ermənilər bir sıra xarici ölkələrdə olan lobbiləri, diasporları vasitəsilə on illərdən bəri ölkəmizə qarşı sistemli informasiya mübarizəsi aparırlar. İşğalçı ölkənin təsiri altında olan, onların pulu ilə maliyyələşən qeyri-hökumət təşkilatları da daim beynəlxalq ictimai rəydə Azərbaycanla bağlı mənfi rəy formalaşdırır. Onların çoxu xarici mətbuatdan, teleradiodan da istifadə edirlər. Amerika mətbuatında illər əvvəl Xocalıdakı soyqırımı əks etdirən şəkil verilmiş və öldürülən Azərbaycan vətəndaşları, guya, erməni kimi göstərilmişdi. Guya, biz ermənilərı qırmışıq. Vaxtilə Bakıda olmuş və bu soyqırımın ermənilər tərəfindən törədildiyini bilən bir amerikalı o zaman bizim Xarici İşlər Nazirliyinə bu barədə məktubla məlumat vermişdi.

Hazırda dünyada informasiya savaşı ən çox internet vasitəsilə aparılır. Bu savaşın qarşısının alınmasında elə internetin özündən istifadənin rolu danılmazdır. Ölkə jurnalistləri Azərbaycanın haqq səsini dünyaya çatdırmalı, anti-Azərbaycan təbliğatı aparanlara tutarlı cavablar verməlidirlər. Ötən illərdə Azərbaycanda internet forumunun keçirilməsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi və Mətbuat Şurasının internet medianın informasiya təhlükəsizliyi mövzusunda birgə dəyirmi masa təşkil etməsi yarana biləcək kibertəhlükələri və onların aradan qaldırılması yollarının axtarıb tapılmasına xidmət etmişdir.

Bir məsələyə də toxunmaq istərdim. Biz informasiya savaşını beynəlxalq dillərdə daha geniş aparmalıyıq. Azərbaycan qanunları buna imkan verir ki, istənilən şəxs ölkədə rus, fransız, alman, ingilis və s. dillərdə qəzet buraxsın. Həmin nəşrlərin elektron variantının olması da vacibdir.

Xalqımızın və ölkəmizin qəsdinə durmuş Ermənistan on illərdən bəridir ki, Azərbaycana qarşı açıq-aydın işğalçılıq siyasəti yeridir. Düşmən ölkənin rəhbərliyi qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınması üçün dəridən-qabıqdan çıxır, hər yerdə anti-Azərbaycan təbliğatı aparır. Bu ölkənin hərbi doktrinası, milli təhlükəsizlik, o cümlədən, informasiya təhlükəsizliyi siyasəti ilə bağlı məsələlər Ermənistan və qondarma "Dağlıq Qarabağ respublikası"nın maraqları kontekstində izah edilir. Bütün bunlar düşmən ölkəni informasiya müharibəsində qabalamaq və tərk-silah etməyi zəruri etmişdir.

Etiraf edək ki, biz əvvəllər informasiya müharibəsində ermənilərə uduzurduq. Ona görə ki, onlar bu işi dövlət səviyyəsində aparırdılar. Amma bu gün əminliklə deyə bilərik ki, bu sahədə artıq onları qabaqlaya bilmişik. Bu da dövlətin dəstəyi və Heydər Əliyev Fondunun təşəbbüsü ilə istər Azərbaycanda, istərsə də xarici ölkələrdə keçirilən tədbirlərin nəticəsidir. Bu sahədə əldə edilmiş uğurlar artıq erməni yalanlarının zərərsizləşdirilməsində, Azərbaycan həqiqətlərinin dünyada qədərincə yayılmasında önəmli rol oynayır.

Artıq dünya birliyi Azərbaycanı daha yaxından tanıyır. Ölkəmizi regionda çox vacib oyunçu hesab edən ABŞ politoloqu Pol Qoblun dediyi kimi: "Azərbaycanın rolu təkcə dünyəvi müsəlman ölkəsi kimi deyil, həmçinin regionun uğurla inkişaf edən yeganə ölkəsi qismində artır. Buna səbəb təkcə enerji resursları deyil, eyni zamanda dövlətin ölçülübbiçilmiş xarici siyasətidir".

***Akif RÜSTƏMOV,***
***Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin professoru***